# GƏLƏCƏYƏ BAXIŞ KONSEPSİYASI ÇƏRÇİVƏSİNDƏ YAŞIL İQLİMƏ KEÇİD DÖVRÜ

**Hafizə İmanova**

*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, Bakı*
*hafizaimanova@yahoo.com*

Ümummilli Lider Heydər Əliyevin uğurlu strategiyasını davam etdirən Cənab Prezident İlham Əliyev Azərbaycanın yeni model inkişaf yolunun – yaşıl iqlimə keçid dövrünün təməlini qoydu. Belə ki, ölkəmizdə hələ Ümummilli Lider Heydər Əliyevin dövründən başlayaraq müvafiq iqlim dəyişikliyi siyasəti və strategiyası aparılır. Cənab Prezident İlham Əliyevin dövründə isə bu proses sürətlənərək yeni yaşıl iqlimə keçidin əsasını qoydu. Azərbaycan artıq sosial-iqtisadi inkişafı və yoxsulluğun azaldılmasını ölkənin prioritetləri olaraq müəyyənləşdirmişdir. Ölkənin iqlim dəyişmələrinin təsirlərinin azaldılması (mitiqasiya) və bu təsirlərə uyğunlaşma (adaptasiya) strategiyaları aşağıdakı uzunmüddətli Dövlət Proqramlarında öz əksini tapır:

– Alternativ və Bərpa olunan Enerji mənbələrindən İstifadə olunması üzrə Dövlət Proqramı (2004)

– Azərbaycan-2020-Gələcəyə baxış inkişaf konsepsiyası (2012)

– 2008-2015-ci llərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı (2008-2015)

– Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı (2004, 2009, 2014)

– 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı (2008-2015)

– Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi (2016)

– Davamlı İnkişaf məqsədlərinə nail olmaq üçün Respublika Prezidentinin 6 oktyabr 2016–cı il tarixli Sərəncamı ilə Azərbaycanın Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası (NCCSD) yaradılmışdır.

Beləliklə, dövlət iqlim siyasəti ratifikasiya edilmiş beynəlxalq (Kyoto Protokolu və Paris Sazişi) və milli sənədlərə (qanunlar, qaydalar, dövlət proqramları) əsaslanır.

Azərbaycanda iqlim sahəsində görülən tədbirlərin zəruriliyini vurğulayan ən bariz nümunələrdən biri 2024-cü ilin noyabr ayında keçirilməsi planlanan beynəlxalq COP29 tədbiridir. Hər il fərqli ölkələrin ev sahibliyi etdiyi "Tərəflərin Konfransı" (COP) həm iqlim fəaliyyətini sürətləndirmək, həm də Pariz Sazişində imzalanan hədəflərə nail olmaq üçün keçirilən beynəlxalq miqyaslı tarixi görüş hesab olunur. Bundan başqa, inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinin təsirini azaltmaq və uyğunlaşmaqda kömək etmək məqsədilə maliyyə yardımı üçün fond toplayırlar. Bu fondla ölkələr təmiz enerji mənbələrinə keçid etməyi, qlobal karbon qazı ifrazını azaltmağı hədəfləyirlər.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişdir. Ölkə Başçısının həm Azərbaycanda, həm də dünya miqyasında baş verən iqlim dəyişmələrinə, ekoloji problemlərə qarşı diqqət və qayğısı örnək bir nümunədir. Azərbaycanın neft-qaz şirkəti olan SOCAR-ın Dubaydakı COP28 tədbirində metan tullantılarının sıfıra endirilməsi ilə bağlı könüllü öhdəlik götürməsi ölkəmizin iqlim problemlərinə həssaslığının təzahürüdür. Qeyd edək ki, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib.

Azərbaycanda COP29 kimi mötəbər bir tədbirin keçirilməsi qərarı təkcə Azərbaycanın ekoloji sahədə gördüyü tədbirlərin nəticəsi kimi yox, eyni zamanda siyasi arenada qazandığı nüfuzun göstəricisidir. Lakin onu da qeyd etmək lazımdır ki, 30 ilə yaxın bir zamanda Ermənistan tərəfindən talan edilmiş torpaqlarımız yenidən bərpa işlərinə, ekologiyasının yenidən bərpasına möhtacdır. İqlimin dəyişdiyi bir zamanda Ermənistanın ərazidə heç bir tədbir görmədən onu əksinə talan etməsi vəziyyəti acınacaqlı hala salmışdır. Bir zamanlar əsrlərlə yaşayan ağaclarını kökündən kəsərək, çaylarına kimyəvi tullantılar buraxaraq, sularını zəhərləyərək Qarabağın ekologiyasına, onun ekosisteminə ciddi şəkildə ziyan vuran Ermənistan dünya ekoloji təşkilatlarının, eyni zamanda beynəlxalq normalarına zidd hərəkət etmişdir. Torpaqlarını işğaldan azad edən Azərbaycan dövlətinin azad edilən torpaqlarda həyata keçirdiyi quruculuq işləri, ekosistemin bərpası, eyni zamanda süni intellektin, yeni texnologiyaların tətbiqi ilə bir daha örnək bir addım oldu. Cənab Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə Qarabağda aparılan ekoloji fəaliyyətlər, əhalinin sosial

rifahının, həyat səviyyəsinin yüksəldilməsi ilə əlaqədar rəqəmsal texnologiyanın, süni intellektin kənd və şəhərlərin salınmasında istifadə edilməsi bir daha iqlim dəyişkənliyi ilə mübarizədə görülən işlərin bariz nümunəsidir.

Qarabağda ekoloji mühitin sürətli bərpası üçün bir çox layihələrə start verildi. Ölkə Prezidenti bir sıra ölkələrdə də mövcud olan ağıllı şəhər "smart city", ağıllı kənd "smart village" layihələrinin tətbiqi üçün göstəriş verdi. Məlumdur ki, iqlimin gələcəkdə törədə biləcəyi fəsadların qarşısının alınması üçün ən optimal layihə məhz "ağıllı şəhər", "ağıllı kənd" layihələridir ki, bu layihələrin həm ərazinin iqtisadi tərəqqisinə, həm də iqlimin fəsadlarından qorunmasına yönəlik tədbirlərlə mühafizəsinə xidmət edəcəyi proqnozlaşdırılmışdır.

Ümumilikdə, ölkə miqyasında aparılan yaşıl iqlim dövrünə keçid mərhələsi uğurla həyata keçirilməkdədir və bununla Azərbaycan dünyaya örnək nümunə olmaqla beynəlxalq miqyasda nüfuzunu və yerini müəyyən edir.